IQRO JURNALI , IQRO JOURNAL, ИКРО ЖУРНАЛИ
ISSN:2181-4341| wordlyknowledge.uz/index.php/iqro
Volume 23 Issue 01 AVGUST 2026

CEK LONDONUN PUBLİSİSTİK İRSİNDƏ ŞİMAL MÖVZUSU

Aynur Zahir Qızı Bədəlova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orcid.org/my-orcid?orcid=0009-0002-9288-6218
badalovaaynurrr@gmail.com

Xülasə

Bu məqalədə Cek Londonun bədii publisistikasında Şimal obrazının təhlili təqdim olunur. Müəllif amerikalı yazıçının jurnal və qəzet nəşrindən istifadə edərək mövzu və üslub xüsusiyyətləri və müəllifin istifadə etdiyi bədii təsvir və ifadə vasitələrinin, eləcə də müəllifin Şimalın vahid obrazını yaratmaqda məqsədini müəyyən edir. Tədqiqat nəticəsində belə bir nəticəyə gəlinir ki, Şimal obrazı yazıçının yaradıcılığında konkret tarixi və metaforik məkan kimi ortaya çıxır, jurnalist və məcazi-metaforik baxış bucağının birləşməsi yazıçının bədii üslubunun xüsusiyyətlərini müəyyən edir.

Açar sözlər: qəzet, jurnal, oçerk, bədii üslub, təbiət, mübarizə.

THE NORTHERN THEME IN JACK LONDON'S PUBLICISTIC HERITAGE

Abstract

This article presents an analysis of the image of the North in Jack London's literary journalism. Using the American writer's magazine and newspaper publications, the author identifies the subject and stylistic features and the means of artistic description and expression used by the author, as well as the author's goal in creating a unified image of the North. As a result of the study, it is concluded that the image of the North appears in the writer's work as a specific historical and metaphorical space, and the combination of journalistic and figurative-metaphorical points of view determines the features of the writer's artistic style.

Keywords: newspaper, magazine, essay, artistic style, nature, struggle.

Giriş

XX əsrin əvvəllərində Amerika ədəbiyyatının ən tanınmış və parlaq nümayəndələrindən biri olan Cek Londonun publisistik irsi onun ədəbi fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edir. Yazıçının müxtəlif dövrlərdə qələmə aldığı publisistik mətnlərdə yaşadığı dövrün ictimai-siyasi mənzərəsi, sosial problemləri və insan amili geniş şəkildə öz əksini tapmışdır. Yazıçının çoxsaylı məqalələri, esseləri, oçerkləri, reportajları və mühazirələri onun həyat yolunu əks etdirir, dövrünün aktual məsələləri ilə bağlı düşüncələrini, dünyagörüşünün əsas xüsusiyyətlərini ortaya qoyur. Təəssüf ki, uzun müddət Cek Londonun qəzet və jurnal publisistikası elmi tədqiqatların diqqətindən kənarda qalmışdır. Halbuki XIX əsrin sonu – XX əsrin əvvəllərində ABŞ-da yazıçıların qəzet və jurnallarla əməkdaşlığı geniş yayılmış bir hadisə idi. Bir çox yazıçılar reportajlar yazır, jurnalistlər isə sonradan bədii yaradıcılığa üz tuturdular. Cek London da qəzet və jurnallar üçün fəal şəkildə yazan müəlliflərdən biri olmuşdur. Onun publisistik irsində Klondayk qızıl hərisliyi dövrü ilə bağlı yazılar xüsusi yer tutur. Yazıçı 1897–1898-ci illərdə qızıl axtaranların sırasına qoşulduğundan həmin hadisələrin canlı şahidi olmuşdu. Bu yazılar sonradan dünya şöhrəti qazanan "Şimal hekayələri" qədər məşhur olmasa da, onların mövzu dairəsi, obrazlar sistemi və müəllif dünyagörüşünü əks etdirməsi baxımından böyük əhəmiyyəti vardır. Tədqiqatçılar qeyd edirlər ki, Cek London Şimal mövzusunu kənardan müşahidə edən yazıçı deyildi. O, həmin mühitin içində yaşamış, onun çətinliklərini öz həyatı ilə hiss etmişdi. Buna görə də həm bədii, həm də publisistik əsərlərində Şimal həyatı canlı və

inandırıcı şəkildə təqdim olunur. Məzmun və forma baxımından Cek Londonun qəzet və jurnal yazıları oçerk janrına yaxındır. Bu mətnlərdə publisistika və bədiilik bir-birini tamamlayır. Müəllif həm real faktlara əsaslanır, həm də bədii təsvir vasitələrindən istifadə edir. Yazıçının Şimala həsr etdiyi oçerklərdə əsas diqqət yalnız insanların məişət problemlərinə və ya təbiətin sərtliyinə yönəlmir. Burada Şimal ayrıca bir dünya kimi təqdim olunur. London tez-tez "Şimal" sözünü böyük hərflə yazaraq onu xüsusi mənəvi və mədəni məkan kimi göstərir. Şimal yazıçının əsərlərində həm təbii mühit, həm də insan xarakterini formalaşdıran bir məktəbdir. Burada insan öz gücünü, dözümlülüyünü və iradəsini sınaqdan keçirir. Bu səbəbdən Şimal insanlar üçün mənəvi inkişaf mərhələsidir.

Metodologiya

Tədqiqatın araşdırılmasında bir neçə metoddan istifadə olunmuşdur. Əsas metod kimi ədəbi-təhlil metodu tətbiq edilmişdir. Bu metod vasitəsilə seçilmiş publisistik mətnlərdə Şimal obrazının necə yaradıldığı, hansı bədii vasitələrlə təqdim olunduğu və hansı ideya xəttini ifadə etdiyi araşdırılmışdır. Eyni zamanda təsviri metoddan istifadə edilərək mətnlərin məzmunu sistemli şəkildə təqdim olunmuş, əsas hadisə və motivlər müəyyənləşdirilmişdir. Tədqiqat zamanı analitik yanaşma tətbiq edilərək mətnlərin dərin mənası və ideya strukturu təhlil edilmişdir. Bundan əlavə, müqayisəli metod vasitəsilə müxtəlif publisistik yazılar arasında Şimal obrazının oxşar və fərqli cəhətləri müəyyənləşdirilmiş, obrazın inkişaf xətti izlənilmişdir. Metodologiyanın bir hissəsi kimi tematik təhlil də aparılmışdır. Bu yanaşma əsasında mətnlərdə təkrarlanan əsas mövzular, motivlər və ideya qruplaşdırılmışdır. Ümumilikdə, tədqiqatda istifadə olunan metodlar bir-birini tamamlayaraq Cek Londonun publisistikasında Şimal obrazının kompleks şəkildə öyrənilməsinə imkan yaratmışdır.

Nəticələr

Aparılan tədqiqat göstərir ki, Cek London publisistikasının əsas xüsusiyyətlərindən biri faktlara əsaslanma və real hadisələrin bədii ümumiləşdirmə ilə təqdim olunmasıdır. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, Cek London Şimal mövzusuna müraciət edərkən onu həm real-coğrafi məkan, həm də məcazi, metaforik məna daşıyan bədii obraz kimi təqdim edir. Şimal burada insanın təbiətlə mübarizə apardığı, sınaqlardan keçdiyi və daxili mənəvi gücünü nümayiş etdirdiyi bir məkan kimi formalaşır. Həmçinin, müəllifin publisistikasında insan-təbiət münasibətləri mərkəzi yer tutur. London təbiəti insanla qarşılıqlı təsirdə olan canlı bir qüvvə kimi təsvir edir. Yazıçının Şimal təsvirlərində həm sərt və təhlükəli mənzərələr, həm də yeni formalaşan sosial və iqtisadi həyatın xüsusiyyətləri paralel şəkildə verilir. Bu isə onun publisistikasında Şimalın dəyişən və inkişaf edən bir məkan kimi təqdim olunduğunu göstərir.

Ümumilikdə, tədqiqatın nəticələri belə qənaətə gəlməyə imkan verir ki, Cek Londonun publisistik yaradıcılığı fakt və bədii təxəyyülün sintezinə əsaslanır və Şimal obrazı bu sintez vasitəsilə həm tarixi sənəd, həm də bədii-estetik mətn səviyyəsinə yüksəlir.

Müzakirə

Tədqiqatçılar Cek London publisistikasının əsas xüsusiyyətlərindən birinin faktlara əsaslanması olduğunu vurğulayırlar. Yazıçı həm publisistik, həm də bədii əsərlərində real hadisələri əsas götürürdü. Onun oçerklərində faktlar hadisələr haqqında dəqiq məlumat verir,oxucuda emosional təsir yaradır, şimal dünyasına marağı artırır, insan və təbiət münasibətlərini daha aydın göstərirdi. Məhz buna görə Londonun publisistik əsərləri həm tarixi sənəd, həm də bədii mətn kimi dəyərləndirilə bilər. 1899-cu ildə çap olunan "Klondayka doğru sürətli axınlar arasından" adlı oçerkində Cek London özünün və üç yoldaşının Klondayka səyahətindən bəhs edir. Onların arasında yalnız Merrit Sloper təcrübəli səyyah idi. Müəllif əvvəlcə Klondayk qızıl hərisliyi dövrünün ümumi mənzərəsini yaradır. O, ilk qızıl axtaranlarla

sonradan gələn yeni nəslin fərqlərini göstərir və Şimalın fəth edilməsini ağır və təhlükəli bir proses kimi təsvir edir. London qeyd edir ki, bu yolda çoxları həlak olmuş, bəziləri ümidsizliyə qapılaraq geri qayıtmışdı. Lakin məqsədinə sadiq qalan insanlar da vardı. Yazıçı özünü və yoldaşlarını məhz həmin insanlara aid edir. Onları irəli aparan əsas qüvvə güclü iradə və məqsədə çatmaq əzmi idi. London təbiəti canlı bir qüvvə kimi təqdim edir. İnsanlarla çay, qayalar və buzlu axınlar arasında sanki əsl mübarizə gedir. Müxtəlif metafora və bədii təsvirlər vasitəsilə təbiət insanın qarşısında duran güclü rəqib kimi canlandırılır. Oçerkin sonunda müəllif belə nəticəyə gəlir ki, Şimalda insan yalnız öz gücünə deyil, həm də təbiətin qanunlarını anlamağa arxalanmalıdır. Təbiətə qarşı çıxmamaq, onunla uyğunlaşmaq həyatda qalmağın əsas şərtidir.

Kaliforniyaya qayıtdıqdan sonra Cek London San Francisco qəzetinə Klondayk səfəri haqqında məqalə təqdim etmək istəmişdi. Lakin redaksiya Alyaska mövzusuna marağın azaldığını əsas gətirərək məqaləni dərc etməmişdi. Yazıçı materialı yenidən işləyərək 1899-cu ildə "Dousondan okeana" adlı oçerk kimi nəşr etdirmişdir.

Bu əsərdə müəllif həm səyahətin iştirakçısı, həm də müşahidəçi rolunda çıxış edir. O, gördüyü hadisələri təsvir edir, onları təhlil edir və qiymətləndirir. London Şimal haqqında bütöv bir təsəvvür yaratmağa çalışır. Müəllif buranı müxtəlif coğrafi adlarla təqdim edir, bölgənin relyefi, bitki örtüyü və heyvanlar aləmi haqqında məlumat verir. Bununla yanaşı, onun əsas diqqəti yenə də insana yönəlir. Yazıçı üçün ən maraqlı məsələ insanın sərt təbiət şəraitində necə yaşaması və dəyişməsidir. London Şimalı yalnız vəhşi təbiət kimi təqdim etmir, onun əsərində burada artıq formalaşmaqda olan sivilizasiya da görünür. Ticarət şirkətləri, hinduların və eskimosların yaşayış yerləri, yeni iqtisadi münasibətlər Şimalın dəyişməyə başladığını göstərir. Müəllif qütb dairəsinə yaxın bir yaşayış məntəqəsinin həyatını canlı şəkildə təsvir edir. İnsanların söhbətləri, gənclərin əyləncələri, tüstü ilə örtülmüş səma və qəribə işıq effektləri Şimala nağılvari görünüş verir. London bu məkanı "möcüzələr ölkəsi" kimi xarakterizə edir. Müxtəlif yaşayış məntəqələrini təsvir edərkən müəllif hər yerdə fərqli bir xüsusiyyətə diqqət yetirir. Dousonda onu yaz və buzların əriməsi maraqlandırırsa, başqa bir qəsəbədə xəbər çatışmazlığı, hinduların yaşadığı ərazidə isə qızılbalıq mövsümü münasibətilə keçirilən bayram diqqətini cəlb edir. Bu oçerkdə London yerli xalqların həyatını da geniş şəkildə təsvir edir. O, onların yaşayış tərzini, adətlərini, dini inanclarını və gündəlik məişətini öyrənir. Müəllif yerli xalqların ağır həyat şəraitinə rəğbətlə yanaşır və onların problemlərinə oxucunun diqqətini cəlb etməyə çalışır. Beləliklə, "Dousondan okeana" oçerki Şimalın təbiəti, insanları və mədəniyyəti haqqında geniş publisistik araşdırmadır.

1900-cü ildə yazılmış "Klondaykın iqtisadiyyatı" adlı oçerkdə Cek London qızıl hərisliyinə tamamilə fərqli baxış bucağından yanaşır. Burada əsas diqqət iqtisadi məsələlərə yönəlmişdir. Müəllif bir sıra vacib suallar qoyur: Qızıl axtarışından kim qazandı? Kim zərər gördü? Nə qədər qızıl çıxarıldı? Yazıçı bu suallara statistik məlumatlar, faktlar və konkret nümunələr əsasında cavab verir. O göstərir ki, Klondayka gələn insanların böyük hissəsi zənginləşmək arzusu ilə yaşayırdı. Lakin onların əksəriyyəti məqsədinə çata bilməmişdi. O qeyd edir ki, bir çox insan qızıl hasilatı barədə heç bir məlumata malik olmadan bu bölgəyə gəlirdi. Onlar tez-tez aldadılır və böyük itkilərlə üzləşirdilər. Buna baxmayaraq, müəllif hesab edir ki, qızıl hərisliyi Şimalın inkişafında mühüm rol oynamışdır.

Onun fikrincə, Klondayk iqtisadi baxımdan bütövlükdə regionun inkişafına təkan vermişdir. Yeni yollar salınmış, yaşayış məntəqələri yaranmış və ticarət əlaqələri genişlənmişdir. Oçerkin sonunda London gələcəyə nikbin baxır. O hesab edir ki, Şimalın iqtisadi potensialı hələ tam istifadə olunmayıb və gələcəkdə region daha da inkişaf edəcəkdir.

1903-cü ildə nəşr olunan "Şimalın qızıl axtaranları" oçerkində Cek London Şimal tarixini insanların taleyi üzərindən təqdim edir. Müəllifə görə, Şimalın tarixi ilk növbədə, böyük arzular uğrunda həyatlarını riskə atan insanların tarixidir. London Şimalın mənimsənilməsi prosesini iki

mərhələyə bölür. Birinci mərhələ əfsanəvi dövrdür. Bu dövrdə bölgəni ilk səyyahlar, ovçular və tədqiqatçılar araşdırırdılar. İkinci mərhələ isə qızıl yataqlarının aşkar edilməsindən sonra başlayır. Müəllif bu prosesdə mühüm rol oynamış bir sıra şəxslər haqqında danışır. Onların arasında Robert Henderson, Frank Dismor, Çarli Anderson və Corc Karmak xüsusi yer tutur. London göstərir ki, sərt iqlim, aclıq, xəstəlik və tənhalıq insanların xarakterini dəyişdirirdi. Yalnız ən dözümlü və iradəli şəxslər sona qədər davam gətirə bilirdilər. Müəllif xüsusilə vurğulayır ki, Şimalın fəthi maddi qazanc əldə etmək məqsədi daşısa da, bu proses yeni insan tipinin formalaşmasına səbəb olmuşdu. Şimal insanları daha güclü, müstəqil və dözümlü edirdi. Oçerkin sonunda London belə nəticəyə gəlir ki, gələcəkdə də Şimalı inkişaf etdirəcək insanlar məhz bu keyfiyyətlərə sahib olan şəxslər olacaq. Onun fikrincə, uğurun əsasında zəhmət, iradə və məqsədə çatmaq dayanır.

Cek Londonun Şimala həsr etdiyi maraqlı publisistik əsərlərdən biri də "Peter de Vill – Alyaskanın Ay ölkəsini araşdıran səyyahı" adlı oçerkdir. Bu yazıda müəllif jurnalist və müsahib rolunda çıxış edir. O, Peter de Vill adlı yaşlı səyyahla söhbət apararaq onun qeyri-adi həyat hekayəsini oxuculara çatdırır. Peter de Vill uzun illər Alyaska və Klondayk ərazilərində səyahət etmiş, qızıl yataqlarında çalışmış və yerli xalqlarla birlikdə yaşamışdır. O, həyatının böyük hissəsini sərt Şimal şəraitində keçirmiş, saysız-hesabsız çətinliklərlə üzləşmişdir. Səyyahın danışdığı ən maraqlı hadisə "Ay ölkəsi" adlandırdığı sirli məkanı axtarmasıdır. Onun sözlərinə görə, bir hindu başçısı ona uzaq Şimalda yerləşən qəribə bir ölkə haqqında danışmışdı. Guya həmin ölkədə fərqli insanlar yaşayır, qəribə heyvanlar mövcuddur və ora gedənlərin əksəriyyəti geri qayıtmır. Bu əfsanə Peter de Villin marağına səbəb olur və o, böyük bir ekspedisiya təşkil edir. Uzun və ağır yolçuluq zamanı səyyahlar aclıq, soyuq və yorğunluqla mübarizə aparırlar. Onlar buzlu gölləri və dağları keçərək naməlum ərazilərə çatırlar. Peter de Vill öz xatirələrində həmin ölkədə uzunboylu, ağdərili və mehriban insanlarla qarşılaşdığını iddia edir. Onların həyat tərzi və görünüşü ona tamamilə fərqli təsir bağışlayır. Lakin geri dönüş yolu son dərəcə ağır keçir və ekspedisiyanın əksər üzvləri həlak olur. London bu hekayəni sadəcə macəra kimi təqdim etmir. Müəllif göstərir ki, Şimal bir çox insan üçün xəyal və arzuların rəmzinə çevrilmişdi. Oçerkin sonunda Peter de Vill etiraf edir ki, illər keçsə də, Şimal onu özünə çəkir. O, yenidən həmin torpaqlara qayıtmaq arzusunda olduğunu bildirir.

1900-cü ildə yazılmış "Şimalın xaski itləri" adlı oçerkdə Cek London Şimal həyatında mühüm yer tutan xaski itlərindən bəhs edir. Müəllif qeyd edir ki, bu itlər sərt təbiət şəraitində yaşamağa uyğunlaşmış xüsusi heyvanlardır. Onlar həm itin, həm də canavarın xüsusiyyətlərini özündə birləşdirirlər. Uzun illər davam edən təbii seçmə nəticəsində son dərəcə dözümlü və güclü olmuşlar. London xaskilərin xarakterini böyük maraqla təsvir edir. Onların ağıllı, inadkar və çevik olduqlarını vurğulayır. Müəllif müxtəlif hadisələr və rəvayətlər vasitəsilə bu itlərin hiyləgərliyini və fərasətini göstərir. Şimalda nəqliyyat vasitələrinin məhdud olduğu dövrdə xaski itləri insanların əsas köməkçiləri hesab olunurdu. Onlar ağır yükləri daşıyır, uzun məsafələri qət edir və bəzən insanların həyatını xilas edirdilər. Yazıçı qeyd edir ki, xaski qoşqusunu idarə etmək xüsusi bacarıq tələb edir. Bu iş təcrübə və səbrlə mümkün olur. London xüsusilə yerli xalqların bu sahədə ustalığını vurğulayır. Oçerkdə xaskilər Şimal həyatının ayrılmaz hissəsi kimi təqdim edilir. Müəllif onların insanlarla birlikdə sərt təbiətə qarşı mübarizə apardığını göstərir. "Ağ Diş" povesti də yazıçının bu mövzuya aid edilmiş əsərlərindəndir. Əsərin qəhrəmanı bir köpək olsa da, müəllif onun hisslərini və düşüncələrini elə ustalıqla təsvir edir ki, oxucunun gözündə bu canlı varlıq insandan fərqlənmir. Ağ Diş həyatının müxtəlif dövrlərində həm qəddarlıq, həm də mərhəmətlə qarşılaşır. Şiddət onun xarakterini sərtləşdirsə də, sevgi və qayğı onu dəyişdirir. Yazıçı bu əsərdə göstərir ki, hər bir canlı sevgi və diqqətə ehtiyac duyur. İnsanların münasibəti canlıların davranışına birbaşa təsir edir.

Cek Londonun "Klondaykda məişət həyatı" adlı oçerki Şimalda gündəlik yaşayışın xüsusiyyətlərinə həsr olunmuşdur. Müəllif ilk cümlədən oxucuya bildirir ki, Klondayk şəraitində

məişət işləri ilə məşğul olmaq son dərəcə çətin işdir. Burada insanların qarşılaşdığı problemlər adi şəhər həyatından tamamilə fərqlənir. Yazıçı qızıl axtaranların həyatını yumor və kinayə ilə təsvir edir. O göstərir ki, ağır zəhmətdən sonra insanların ən böyük qayğılarından biri yemək hazırlamaq olur. Maraqlıdır ki, bir çox qızıl axtaran çörək bişirmək məsələsində özünü mütəxəssis hesab edirdi. Müəllif çörək hazırlanması prosesini ətraflı təsvir edir və qeyd edir ki, Klondaykda yaxşı çörək bişirmək xüsusi sənət sayılırdı. Bu sahədə mahir olan insanlara böyük hörmətlə yanaşılırdı. Oçerkdə Şimal həyatının digər tərəfləri də əks olunur. İnsanlar işıqlandırma üçün yağ lampalarından istifadə edir, odun hazırlayır, itlərə qulluq edir və sərt hava şəraitinə uyğun yaşayış qaydaları formalaşdırırdılar. London qeyd edir ki, Şimalda bəzi məişət qaydaları adi həyatdakından tamamilə fərqlənirdi. Məsələn, ev təmizliyi və gündəlik ev işləri ikinci plana keçir, əsas məqsəd isə sağ qalmaq idi. Müəllifin fikrincə, Klondaykda ev işləri də qızıl axtarmaq qədər vacib iş idi. İnsanların uğuru yalnız qazandıqları qızılın miqdarından deyil, həm də çətin şəraitdə gündəlik həyatı necə təşkil etmələrindən asılı idi.

Nəticə

Cek Londonun Şimal mövzusuna həsr etdiyi publisistik əsərlər onun yaradıcılığının mühüm hissəsini təşkil edir. Bu əsərlərdə müəllif təkcə qızıl hərisliyi dövrünün hadisələrini təsvir etmir, həm də Şimalın təbiətini, insanlarını, məişətini və mənəvi aləmini canlandırır. Yazıçı üçün Şimal insan xarakterinin formalaşdığı, iradənin sınaqdan keçirildiyi və yeni həyat dəyərlərinin yarandığı bir məkandır. Yazıçının publisistik mətnlərində fakt və bədii təsvir üzvi şəkildə birləşir. Məhz buna görə Cek Londonun publisistik irsi onun bədii yaradıcılığını anlamaq üçün mühüm mənbə hesab olunur və bu gün də tədqiqatçılar üçün öz aktuallığını qoruyur.

İstifadə edilmiş ədəbiyyat

1. London C. Seçilmiş əsərləri. Bakı: Öndər Nəşriyyat, 2005. 512 s.
2. Лондон Дж. Сочинения: в 2 т. М.: Терра – книжный клуб, 2001. Т. 2. 384 с.
3. Шачкова В.А. «Путешествие» как жанр художественной литературы: вопросы теории // Вестник Нижегородского университета имени Н.И. Лобачевского. Серия: Филология. Искусствоведение. 2008. № 3. С. 277–281.
4. London J. Peter de Ville, Alaska's Moon Country Explorer, Tells Jack London His Story of the Luring North [Электронный ресурс]. URL: https://thegrandarchive.wordpress.com/peter-de-ville-alaskas-moon-country-explorer-tells-jack-london-his-story-of-the-luringnorth/ (дата обращения: 10.08.2018).
5. Letters from Jack London: in 3 V. / ed. by E. Labor. Stanford: Stanford University Press, 1988. 1657 p.
6. Tichi C. The Facts of Life and Literature // The Oxford Handbook of Jack London / ed. by J. Williams. Oxford: Oxford University Press, 2017. pp. 27–39.